# Azərbaycan sənayesinin inkişafında yeni mərhələ

**Ölkə iqtisadiyyatının bir çox sahələrində, xüsusilə də qeyri-neft sektorunda müşahidə edilən yüksəliş bir tərəfdən sənayenin inkişafını əks etdirirsə, digər tərəfdən mövcud sənaye potensialından tam istifadə olunması məqsədi ilə əlavə tədbirlərin həyata keçirilməsi zərurətini ortaya qoyur.**



Eyni zamanda sənaye Azərbaycanın təsərrüfatının əsas sahələrindən biridir. Onun inkişafını müəyyən edən təbii ehtiyatlar, ixtisaslı kadrlar, əmək ehtiyatları, onların əmək vərdişləri və istehlakçı potensialı ölkədə kifayət qədərdir.

Hələ ötən əsrin 70-80-ci illərindən başlayaraq Azərbaycanda sənayeləşmə siyasəti geniş miqyasda həyata keçirilmiş, yüzlərlə sənaye müəssisəsi inşa edilib, bu sahədə güclü potensial yaradılıb.

Hazırda ölkədə sənayenin yanacaq energetika kompleksi, elektroenergetika, maşınqayırma və kimya sənayesi, metallurgiya, meşə sənayesi və mebel istehsalı, tikinti materiallari və konstruksiya istehsalı, yüngül və yeyinti sənayesi və digər sahələrində potensialın mövcudluğu və ondan istifadə edilməsi bəllidir.

Bundan başqa yanacaq energetika kompleksi ixracda da böyük paya sahibdir. Ölkənin gəlirlərinin həcmində əhəmiyyətli yerə malikdir.

Bununla belə son illərdə Azərbaycanda hasilatdan daha çox emal sənayesinə üstünlük verilməsi Ümumi Daxili Məhsul istehsalının həcmində də özünü göstərir. Bu, eyni zamanda qeyri-neft sektorunun inkişafına təkan verməklə yanaşı, həm də iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Digər yandan Azərbaycan elektroenergetika bazası ilə də zəngindir. Bütün elektrik stansiyalarında istehsal edilən enerjinin 80%-i İES-lərin, 20%-i isə SES-lərin payına düşür.

Sənaye sahələri arasında maşınqayırma istehsal edilən məhsulun dəyərinə, işçilərinin sayına görə 1-ci yeri tutur. Eyni zamanda Azərbaycanda maşınqayırmanın müxtəlif məhsullarına tələbat olsa da, son illərə qədər ölkəmiz maşınqayırmanın - neft maşınqayırması sahəsi üzrə ixtisaslaşıbdır. Neft maşınqayırması bu sahənin 1/4-ni əhatə edir.

Ölkədə xammal bazasının və müxtəlif metal tullantılarının, yerli enerji ehtiyatlarının, metal tələbatlı sənaye və tikinti sahələrinin olması, təcrübəli kadr və əmək ehtiyatlarının mövcudluğu metallurgiya sənayesinin inkişafı üçün geniş imkanlar yaradır. Bundan başqa neft-qaz sənayesinin genişləndirilməsi metallurgiyanın əsas sahəsi olan qara metallurgiyanın inkişafını şərtləndirən amillərdəndir.

Azərbaycanda meşə ehtiyatları tədarük üçün nəzərdə tutulmadığından respublikanın meşə sənayesi və mebel istehsalı mexaniki və kimyəvi emala əsaslanır. Xammal olaraq əsasən idxala üstünlük verilir. Yalnız bəzi növ möhkəm oduncaqlı ağaclardan mexaniki emal üçün istifadə olunur.

Daş, şüşə, tikinti qumu, keramika ehtiyatlarının çoxluğu abşeron iqtisadi rayonunda tikinti materiallari və konstruksiya istehsalı sənayesinin mineral tikinti xammalı sahəsinin inkişafında böyük rol oynayır.

Azərbaycanda qabaqcıl sahələrə malik olan yüngül və yeyinti sənayesi ümumi sənaye potensialının 30 faizini özündə cəmləşdirir. Yüngül sənayenin əsasını toxuculuq təşkil edir.

Yeyinti sənayesində isə ixtisaslaşdırılmış sahələr meyvə-tərəvəz, konserv, ət-süd istehsalı olsa da ən gəlirli sahə şərabçılıqdır. Bu səbəbdən də son illərdə ölkədə şərabçılığın inkişafını stimullaşdırmaq məqsədilə dövlət proqramları və digər tədbirlər həyata keçirilir.

XIX əsrin ortalarında Abşeronda sənaye üsulu ilə qazılan ilk neft quyusundan vuran fontan Azərbaycanda sonrakı böyük iqtisadi tərəqqidə elə böyük dönüş mərhələsi olmaqla iqtisadiyyatın, xüsusilə də sənayenin sürətli inkişafının möhkəm əsasını qoydu.

Həmin dövrdən XX əsrin ilk onilliklərinə qədər keçən vaxt ərzində dünyada neft hasilatının başlıca mərkəzi kimi tanınan Azərbaycanda bu sahənin inkişafı bir sıra başqa sahələrin də yaranmasına səbəb oldu. Hər şeydən əvvəl hasil edilən, həcmi ildən-ilə artan neftin bir hissəsinin Bakıda emalı və neftçıxarma sənayesi ilə bilavasitə əlaqədar olan bir sıra başqa sənaye sahələri də inkişaf etdirirdi.

Bakı neftinin həm boru kəməri, həm də dəmir yolu xətti vasitəsi ilə dünya bazarına çıxarılmasına başlanılmışdı ki, bu da Azərbaycanın yüngül, yeyinti və başqa sənaye məhsullarının da dünya bazarlarına çıxarılması imkanlarını genişləndirirdi. Nəticədə XIX əsrin axırı və XX əsrin əvvəllərində Azərbaycanda sənayenin ümumi inkişaf səviyyəsi çar Rusiyasının bir sıra rayonları ilə müqayisədə çox yüksək yer tuturdu. Zaqafqaziyada olan fabrik-zavod sənaye müəssisələrinin 59%-i, istehsal olunan ümumi sənaye məhsulunun 94%-ə qədəri və sənaye fəhlələrinin 75%-i Azərbaycanın payına düşürdü.

Bu dövrdə Rusiya imperiyasında istehsal olunan neftin 74,6%-ni, pambıq lifinin 10%-ni, tutulan balığın 9,0%-ni, istehsal olunan xam ipəyin 8,0%-ni və elektrik enerjisinin 6,0%-ni Azərbaycan sənayesi verirdi. Azərbaycan eyni zamanda bütün keçmiş Rusiya İmperiyasının sənayesi inkişaf etmiş ən iri əyalətlərindən biri səviyyəsinə qalxdı.

Azərbaycan sənayesinin inkişafında mühüm rol oynayan Sumqayıt boruyayma, alüminium və sintez-kauçuk zavodları, Gəncə alüminium zavodu, Daşkəsən filiz saflaşdırma kombinatı, Mingəçevir su-elektrik stansiyası və sairə iri müəssisələr tikilib istifadəyə verilmişdi ki, bununla da həmin illərdə ağır sənayenin energetika, kimya və neft-kimya, neft emalı, qara və əlvan metallurgiya, cihazqayırma və elektrotexnika kimi sahələrinin geniş inkişafının əsası qoyuldu.

1969-cu ildə respublikanın rəhbəri təyin edilən ümummilli lider Heydər Əliyevin cəsarətli və elmi əsaslara söykənən iqtisadi siyasəti nəticəsində Azərbaycan xalq təsərrüfatının son bir əsrlik inkişaf tarixində ilk dəfə olaraq hərtərəfli və uzunmüddətli yüksək dönüş mərhələsinin əsası qoyuldu. 1970-1985-ci illərdə yaradılmış istehsal potensialı sənayedə istehsal həcminin dinamik artması, ümumittifaq əmək bölgüsündə respublikanın payı, həmçinin xarici iqtisadi əlaqələrdə onun iştirakının artması ilə səciyyələnirdi.

Sənayenin dinamik yüksəlişini təmin etmək üçün iqtisadiyyatda struktur siyasətinin prinsipial şəkildə yeni istiqamətləri işlənib hazırlanmış və həyata keçirilmişdi. Bu istiqamətlər sənayenin qabaqcıl və mütərəqqi sahələrində, ilk növbədə maşınqayırma kompleksində, kimya və neft-kimyada, əlvan metallurgiyada texniki cəhətdən yenidənqurma və yeniləşmə prosesləri ilə eyni vaxtda, neft-qaz hasilatı və neft emalı sənayesinin, energetikanın, qara metallurgiyanın və dağ-mədən sənayesinin genişlənməsini nəzərdə tuturdu. Sənaye müəssisələrinin rekonstruksiya, modernləşdirmə işləri genişləndirilmiş, istehsalın texniki səviyyəsi xeyli yüksəlmişdi.

Bu və ya başqa tədbirlər sənayedə bir çox mütərəqqi istehsal növlərinin artım sürətinin sənayenin orta artım göstəricisindən xeyli yüksək olması ilə səciyyələnirdi. Belə ki, sənayenin quruluşunda maşınqayırma kompleksinin xüsusi çəkisi 1970-ci ildəki 12,1%-dən 1985-ci ildə 16,4%-ə, kimya, neft-kimya, meşə-ağac emalı sənaye kompleksi müvafiq qaydada 7,6%-dən 8,7%-ə, yeyinti sənaye kompleksi 18,7 %-dən 28,9%-ə çatdırıldı.

Lakin sonrakı dövr - SSRi-nin dağılması və müstəqilliyimizin ilk illərində sənayedəki inkişafdan əsar-əlamət qalmamış, digər sahələr kimi sənayedə də dərin böhran hökm sürürdü. Belə ki, həm SSRİ dövründən miras qalmış tənəzzül içində idi, həm də səriştəsiz və məsuliyyətsiz idarəçilik nəticəsində ölkədə ÜDM-in və sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 40%, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi 4 dəfə azalmışdı.

Yalnız ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra ölkə iqtisadiyyatında köklü dəyişikliklər aparılmasına başlandı, iqtisadiyyatı dirçəltmək, onun müstəqilliyinin bütün sahələrdə qorunmasını təmin etmək üçün düşünülmüş strategiya hazırlandı.

1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Lakin müstəqil Azərbaycan başqa neft hasil edən ölkələrin keçdiyi yolla getmədi, özünün orijinal inkişaf modelini seçdi.

İlkin mərhələdə özəlləşdirmə proqramı çərçivəsində ölkədə müəssisələrin, o cümlədən sənaye müəssisələrinin özəlləşdirilməsi həyata keçirildi. Eyni zamanda neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilməsi prioritet oldu ki, bununla da iqtisadiyyatın şaxələndirilməsi milli iqtisadiyyatın əsas amilinə çevrildi.

2014-ci ilin "Sənaye ili" elan edilməsi ilə Azərbaycanda sənayeləşmə prosesinin keyfiyyətcə yeni mərhələsi başlanmışdır. 2015-2020-ci illərdə sənayenin inkişafına dair Dövlət Proqramı hazırlanmış və proqramda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında eyni zamanda sənayenin uzunmüddətli inkişaf istiqamətləri əsas götürülmüşdür. Bununla yanaşı, bu il üçün təsdiq edilmiş Tədbirlər Planına əsasən, sənaye potensialının gücləndirilməsi, bu sahədə rəqabət qabiliyyətinin artırılması, kadr potensialının, elmi təminatın yaxşılaşdırılması, normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı müvafiq işlər görülür.

Bu sahənin sürətli inkişafının intensivləşdirilməsi məqsədilə sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenidən qurulması, onların modernləşdirilməsi, yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müasir sənaye komplekslərinin yaradılması, rəqabətədavamlı sənaye istehsalının genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

İqtisadiyyat və Sənaye Nazirliyi Azərbaycanın qarşıdakı üç ildə sosial-iqtisadi inkişaf göstəriciləri ilə bağlı proqnozlarına əsasən, 2015-2017-ci illərdə iqtisadiyyatda əsas ağırlıq mərkəzi qeyri-neft sektorunun üzərinə düşəcək.

Yenilənən proqnozlara görə, 2014-2017-ci illərdə ölkə ÜDM-də neft sektorunun payı müvafiq olaraq 40,4 faizdən 29,8 faizə düşəcək. ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi 2014-cü ildə 59,6 %-dən 2017-ci ildə 70,2 %-ə çatacaq.

Nazirlik qeyri-neft sektorunun inkişafı ilə bağlı Strateji Plan hazırlayıb və sənəddə qeyri-neft sahələrində yüksək artım tempinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artırılması kimi əsas hədəfləri müəyyənləşib. Bu hədəflərə çatmaq üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi, çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf təmayülünün təmin olunması kimi məqsədlər nəzərdə tutulub. Bu da ki, qeyri-neft səneyesinin iqtisadiyyatın qeyri-neft sektorundakı payının yüksəlməsinə, ÜDM-də geniş yer tutmasına gətirib çıxaracaq. Sözsüz ki, burada emal sənayesinin üstünlük təşkil edəcəyi də mütləq olacaq.

Strateji Planda nəzərdə tutulan əsas müddəalardan biri də ortamüddətli perspektivdə ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığının daha da artırılmasına nail olmaqdır.

✍ **Ceyhun Piriyev, *"İki sahil"***

***"Yazı İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən jurnalistlər arasında elan edilmiş yaradıcılıq müsabiqəsinə təqdim edilir"***